**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏCRUH MUĞANİ "DİVAN"ININ TEKSTOLOJİ TƏDQİQİ VƏ LEKSİKASI

İxtisas: 5721.01 – Mətnşünaslıq, mənəvi, mədəni irsə dair qədim əlyazmaların işlənməsi (tərcüməsi, tədqiqi və nəşrə hazırlanması)

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Nuranə Ramiz qızı Ələkbərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor **Möhsün Zellabdin oğlu Nağısoylu**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor **Kamandar Kazım oğlu Şərifov**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent **İnci Təvəkgül qızı Qasımlı**

filologiya elmləri üzrə fəlsəfə doktoru **İlahə Xaləddin qızı Vəliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 qeydiyyat nömrəli Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor **Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru **İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor **Yaqub Məhərrəm oğlu Babayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müxtəlif dövrlərə aid ədəbi əsərlərin təhlili, eləcə də ayrı-ayrı ədib və şairlərin yaradıcılığının tədqiqi Azərbaycan ədəbiyyatının fərqli dönəmlərini, ədəbi mühitləri və prosesləri işıqlandırmaqla bərabər, həm də dövrün ictimai-mədəni mənzərəsini ortaya qoyur, bu əsərlərin tarixi-mədəni prosesdəki yerini, rolunu dərk etməyə kömək edir. Çünki qələmə alınan hər bir mətn, ədəbi əsər dövrünün sosiokulturoloji şərtlərini, inkişaf dinamikasını əks etdirərək sonrakı nəsillərə ötürülən əxlaqi-didaktik dəyərlərin qiymətləndirilməsi baxımından da əhəmiyyətlidir. Bu mənada ana dilimizdə yazan hər bir şairin bədii irsinin və ana dilimizdə yazılan hər bir əsərin araşdırılması elmi-nəzəri, mədəni-ictimai aktuallıq kəsb edir.

Məlumdur ki, dövrün mürəkkəbliyi və mədəni-siyasi şəraitin rəngarəngliyi fonunda XIX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət gərgin idi. 1801-1813-cü illərdə Şimali Azərbaycan xanlıqlarını bir-birinin ardınca işğal etmiş Rusiya, Kürəkçay və Gülüstan müqavilələri ilə bu işğala hüquqi don geyindirmiş, 1828-ci ilin Türkmənçay və 1829-cu ilin Ədirnə müqavilələri ilə isə işğal prosesini tamamlamış, həm Qacarları, həm də Osmanlıları yeni reallıqla barışmağa məcbur etmişdi.

Əlbəttə ki, yaranmış yeni ictimai-siyasi vəziyyət Azərbaycan xalqı, onun mədəni-ictimai həyatı üçün təsirsiz ötüşmürdü. Tamamilə yad bir sivilizasiyanı təmsil edən fərqli bir dövlətin tərkib hissəsinə çevrilmiş Azərbaycanın mədəni həyatında mürəkkəb proseslər, köklü dəyişikliklər yaşanırdı. Bu fərqliliklər Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus ştrixlərlə əks olunur, o cümlədən XIX əsrin ortalarında Azərbaycanda yaşayıb-yaratmış ədiblərin yaradıcılığında da özünü bariz şəkildə göstərirdi.

Bütün bu sosial-siyasi və mədəni təbədüllatlar fonunda, xüsusən də baş verən tarixi hadisələrin ədəbi mühitdə öz əksini tapdığı bir dövrdə ənənəvi xətt üzrə eyni janr və cərəyanlar müstəvisində formalaşan orta əsr ədəbiyyatından fərqli olaraq, XIX əsr ədəbiyyatı yeni inkişaf yoluna qədəm qoyurdu. Bu baxımdan, "... *ədəbiyyatımızın ümumi tarixində*

*yeni və coşqun bir inkişaf mərhələsini"*[1] təşkil edən XIX əsr ədəbi mühitinin müxtəlif məxəzlər, xüsusən də əlyazma irsi əsasında araşdırılması tədqiqat işinin aktuallığını şərtləndirir.

Zəngin ədəbi-mədəni mühiti ilə seçilən, həmçinin ziddiyətli olan XIX əsrdə yüzdən artıq şair yazıb-yaratmışdır. Bu şairlərdən Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh və başqalarının adını çəkmək olar. Bu dövrün məşhur ədəbi simaları ilə yanaşı, ədəbiyyat tarixinin qaranlıq guşələrində qalan, adını mədəniyyətimizin şanlı səhifələrinə yazdıracaq qədər məşhurlaşa bilməyən şair və ədiblərimiz çoxdur. Sovet ideoloji sisteminin təlqini ilə bir neçə şairin həyat və yaradıcılığı geniş şəkildə, bəzi hallarda təkrar-təkrar tədqiq olunmasına baxmayaraq, ədəbi-bədii irsimizin çoxşaxəliliyini və zənginliyini pərdələmək xətrinə epiqonçu, nəziräçi ədəbiyyat adı altında bir çox ədib və şairlər ədəbiyyat tarixşünaslığının nəzərindən kənarda qalmış, səthi məlumatlarla kifayətlənilmişdir. Bəzi şairlərin yalnız bir neçə əsəri işıq üzü görmüş, bəzilərinin isə yaradıcılıqları haqqında sadəcə məqalə səviyyəsində məlumatlar verilmişdir. Bu mənada XIX əsrdə yaşayıb-yaratmış, ədəbi ictimaiyyətin az tanıdığı sənətkarlardan biri olan Məcruh Muğaninin ədəbi kimliyinin və bədii irsinin mənsub olduğu dövrə, mühitə və axına uyğun olaraq araşdırılması, yeni ədəbi tənqid müstəvisində əsərlərinin şərhi mühüm əhəmiyyət kəsb edir. Adı və əsərləri geniş oxucu kütləsinə məlum olmayan belə sənətkarların irsinin tədqiqata cəlb edilməsi, hərtərəfli öyrənilməsi və ədəbi ictimaiyyətə təqdim olunması müasir Azərbaycan ədəbiyyatşünaslığının, xüsusən də ədəbi mətnşünaslığın aktual məsələlərindəndir.

Şairin tərcümeyi-halının öyrənilməsi üçün apardığımız tədqiqatlardan aydın olur ki, çox az mənbədə şair haqqında məlumatlar vardır.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutununda qorunan zəngin xəzinədə Məcruh Muğaninin yaradıcılıq nümunələri saxlanılır. Bunlar cüng və məcmuələrdə, həm də toplu şəkildə əlyazmalarda mühafizə olunmaqdadır. Şairin "Divan"ı göstərir ki, o, XIX əsr ədəbi mühitində sayılıb-seçilən sənətkarlardan biri olmuşdur.

[1] Xəndan, C. Ədəbi qeydlər / C. Xəndan. – Bakı: Azərnəşr, – 1966. – s. 3.

İndiyə qədər Məcruhun ədəbi irsi tədqiqata cəlb edilməmiş, əsərləri işıq üzü görməmişdir. Apardığımız araşdırmalar nəticəsində məlum olur ki, şairin yaradıcılığından bəhs edən tədqiqatlar, demək olar ki, yoxdur. Yalnız Əlyazmalar İnstitutunun keçmiş əməkdaşı Tutu Sadıqova onun yaradıcılığını araşdıraraq məqalə yazmış[2], lakin şair haqqında geniş məlumat verə bilməmişdir. Bütün bunlar göstərir ki, şairin zəngin ədəbi irsinin daha ətraflı şəkildə araşdırılmasına ehtiyac vardır.

XIX əsr Azərbaycan ədəbiyyatının nümayəndələrindən olan Məhəmmədəli bəy Məcruhun əsərlərinin nəşri məsələsi, dilinin tədqiq edilməməsi mövzunun aktuallığını vurğulayır, şairin ədəbi yaradıcılığının araşdırılması, "Divan"ının tekstoloji və leksik tədqiqini elmi-nəzəri cəhətdən şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XIX əsr şairi Məcruh Muğaninin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan "Divan"ı, müxtəlif təzkirələr və əlyazmalardır. "Divan"ının tekstoloji və leksik baxımdan öyrənilməsi tədqiqat işinin predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi XIX əsrdə yaşamış Azərbaycan şairlərindən olan Məcruh Muğaninin həyatını və ədəbi yaradıcılığını araşdırmaq, "Divan"ın paleoqrafik-orfoqrafik xüsusiyyətlərini, leksik-semantik mənzərəsini ədəbi dil və dialektlər kontekstində tədqiq etmək, eləcə də digər klassiklərin, müxtəlif yazılı abidələrin dili ilə müqayisəli şəkildə araşdırmaqdan ibarətdir. Bu məqsədlə qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

- Məcruh Muğaninin həyat və yaradıcılığının tədqiqi tarixinə nəzər salmaq;
- Şairin dövrü, ədəbi irsi və həyatı ilə bağlı məlumatları müxtəlif mənbələr əsasında araşdıraraq sistemləşdirmək;
- "Divan"ın əlyazmasını tekstoloji baxımdan təhlil etmək;
- "Divan"ın orijinal əlyazma nüsxəsini transfoneliterasiya edərək paleoqrafik cəhətləri göstərmək və digər mənbələrdən əldə etdiyimiz şeir nümunələri ilə qarşılaşdıraraq fərqli məqamları ortaya qoymaq;
- "Divan"ın qrafik-imla xüsusiyyətlərini öz dövrünün və orta

[2] Sadıqova, T. Yeganə əlyazma // – Bakı: Elm və həyat, – 1984. №3, – s.13-14.

əsrlər yazılı abidələrin imla xüsusiyyətləri ilə müqayisə edərək təhlil etmək;

- "Divan"ın orijinal nüsxəsinin və digər mənbələrdəki nümunələrin orfoqrafik xüsusiyyətlərinin xarakterik cəhətlərini təsbit etməklə XIX əsr yazı dilinin fonetik-orfoqrafik mənzərəsi haqqında fikir söyləmək;

- "Divan"ın lüğət tərkibinin tematik xüsusiyyətlərini müəyyənləşdirmək və digər mənbələrlə müqayisədə leksik özünəməxsusluğunu üzə çıxarmaq;

- "Divan"ın dilindəki leksik vahidlərin qədim türkcə, Azərbaycan klassik ədəbiyyatının digər nümayəndələrinin dili, həmçinin ədəbi dil və dialekt faktları ilə müqayisəli şəkildə təhlil etmək, alınma leksik vahidlərin işlənmə səviyyəsini, tezliyini aydınlaşdırmaq;

- "Divan"ın dilinin leksik-semantik xüsusiyyətlərini təhlil etmək, omonim, sinonim və antonim söz qruplarının üslubi-semantik funksionallığını təyin etmək;

- "Divan"ın dilində söz yaradıcılığı prosesinə nəzər salmaq, morfoloji və sintaktik yolla sözdüzəltmənin çalarlarını göstərərək diaxron və sinxron planda təhlil etmək.

**Tədqiqat metodları.** Müasir mətnşünaslığın nəzəri müddəalarına üstünlük verilən tədqiqat işində, əsasən tarixi-müqayisəli, təsviri, statistik metodlardan, diaxron və sinxron təhlil üsullarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin müdafiəyə çıxarılan müddəalarını aşağıdakı kimi sıralamaq mümkündür:

- XIX əsr Azərbaycan ədəbiyyatı tarixşünaslığının diqqətindən kənarda qalmış nümayəndələrindən biri olan Məhəmmədəli bəy Məcruh Muğaninin ədəbi irsi sistemli şəkildə araşdırılmış, onun klassik ədəbi irsimizdəki yeri və mövqeyi müəyyənləşdirilmişdir.

- Məcruh Muğaninin yaşayıb-yaratdığı XIX əsrin gərgin və mürəkkəb ictimai-siyasi həyatı şairin yaradıcılığında öz əksini tapmış, tədqiqat zamanı siyasi hadisələrin, ictimai proseslərin onun poetik irsinə təsiri müəyyənləşdirilmişdir.

- Məcruh Muğaninin ədəbi irsi, xüsusilə şairin avtoqraf nüsxəsi olan "Divan"ı tekstoloji baxımdan kompleks şəkildə tədqiq olunaraq

əsərin mətninin elmi dövriyyəyə gətirilməsi üçün əsaslı material əldə edilmişdir.

- Müxtəlif mənbələrdən əldə edilmiş Məcruh Muğani şeirləri "Divan"dakı nümunələrlə müqayisəli şəkildə araşdırılmış, mətnlər arasındakı fərqlər, variantlar və dəyişmələr müəyyənləşdirilmişdir.

- "Divan"ın transfoneliterasiyası əsasında əsərin qrafik-imla və orfoqrafik xüsusiyyətləri müəyyənləşdirilmiş, bu xüsusiyyətlərin XIX əsr Azərbaycan yazı dilinin fonetik-orfoqrafik mənzərəsi ilə əlaqəsi üzə çıxarılmışdır.

- "Divan"ın lüğət tərkibi XIX əsr Azərbaycan ədəbi dilinin inkişaf panoramını əks etdirən mühüm və etibarlı dil tarixi qaynaqlarından biridir.

- "Divan"ın lüğət tərkibində XIX əsr Azərbaycan ədəbi dilinin əsas leksik qatını əks etdirən müxtəlif tematik və leksik-semantik söz qruplarının fəal şəkildə işləndiyi müəyyən edilmişdir.

- "Divan"ın lüğət tərkibində ərəb və fars mənşəli sözlər mühüm yer tutur, həmin alınmaların əhəmiyyətli hissəsini Azərbaycan xalq dilində işləkliyini qoruyan və dilin leksik sistemində sabitləşərək vətəndaşlıq hüququ qazanan leksik vahidlər təşkil edir.

- "Divan"ın lüğət tərkibinin leksik-semantik sistemi müəyyənləşdirilərək, omonim, sinonim və antonim söz qruplarının işlənmə xüsusiyyətləri və mətn daxilindəki üslubi-semantik imkanları üzə çıxarılmışdır.

- "Divan"ın dilində söz yaradıcılığının morfoloji və sintaktik üsulları müəyyənləşdirilmiş, sözdüzəltmə prosesinin xüsusiyyətləri diaxron və sinxron müstəvidə araşdırılaraq ədəbi dilin tarixi kontekstində təhlil edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində XIX əsrdə yaşayıb-yaratmış Azərbaycan şairi Məcruh Muğaninin həyat və yaradıcılığı ilk dəfə araşdırılmış, tərəfimizdən transfoneliterasiya edilmiş əsərləri tədqiqata cəlb edilmişdir. "Divan" əlyazmasındakı ədəbi nümunələrin köməyi ilə şairin həyatına dair bəzi məlumatlar əldə edilərək sistemləşdirilmişdir. Eyni zamanda fərqli cünglər və arxiv materiallarındakı şeir nümunələri aşkara çıxarılmışdır. Abidə dil baxımından sistemli şəkildə araşdırılmış, "Divan"dakı əsərlərin leksik tərkibi tematik, leksik-semantik söz qrupları üzrə təhlil edilmiş, digər

abidələrlə müqayisələr aparılmış, həmçinin şairin dilində söz yaradıcılığı prosesi tədqiq edilmişdir. Əsərlərinin tekstoloji və leksikoloji tədqiqi ilə birlikdə şairin Azərbaycan ədəbi mühitindəki yeri və mövqeyinin araşdırılması, ədəbi irsinin ortaya çıxarılması ədəbiyyat tariximizə müəyyən yenilik gətirir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində XIX əsr Azərbaycan ədəbiyyatının nümayəndəsi Məhəmmədəli bəy Məcruh Muğaninin ədəbi irsi ilk dəfə sistemli və geniş şəkildə araşdırılmışdır. "Divan"ın zəngin dil materialları XIX əsr Azərbaycan ədəbi dilinin, xüsusilə onun leksik tərkibinin əsas xüsusiyyətlərini müəyyənləşdirməyə və dilin tarixi inkişaf dinamikasını izləməyə imkan verir. Bu baxımdan Azərbaycan dilinin tarixi, izahlı, dialektoloji, sinonimlər, omonimlər və antonimlər lüğətlərinin hazırlanması zamanı dil tarixi qaynağı kimi istifadə edilə bilər. Eyni zamanda tədqiqatın nəticələrinə XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair dərs vəsaitlərinin, elmi-metodik materialların hazırlanmasında, ali məktəblərdə xüsusi seminar və məşğələlərin təşkilində elmi mənbə kimi istinad oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasında və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasında təsdiq edilmişdir. İş Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir. Tədqiqat işinin mövzusu ilə bağlı elmi mətbuatımızda və xarici jurnalda məqalələr çap olunmuş, beynəlxalq konfranslarda məruzələrlə çıxış edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş (11048 şərti işarə), üç fəsil (birinci fəsil – 70423 şərti işarə; ikinci fəsil – 73140 şərti işarə; üçüncü fəsil – 83501şərti işarə), nəticə (3674 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 241786 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi və elmi yeniliyindən bəhs edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, nəzəri və təcrübi əhəmiyyəti, işin aprobasiyası və quruluşu göstərilir. Dissertasiya üç fəsildən ibarətdir.

Birinci fəsil **"Məcruh Muğani "Divan"ının tekstoloji tədqiqi"** adlanır, üç paraqrafdan ibarətdir.

"**Məcruh Muğaninin həyatı və yaradıcılığı"** adlanan ilk paraqraf iki bənddən ibarətdir: **"Tərcümeyi-halına dair qeydlər"** və **"Ədəbi irsinin tədqiqi"**. Burada şairin yaşadığı dövrün ədəbi-siyasi hadisələri, onun həyatı və yaradıcılığından bəhs olunur.

Əlyazmalar İnstitutunda mühafizə edilən abidələrin böyük qismi doğma dilimizdə yazıb-yaratmış sənətkarların əsərləridir. Yaradıcılığı əlyazma şəklində bizə gəlib çatan Məcruh Muğaninin ədəbi irsi indiyədək tədqiq edilmədiyi üçün o, ədəbiyyat tariximizdə öz layiqli qiymətini ala bilməmişdir. Məcruhun Əlyazmalar İnstitutunun fondunda qorunan əsərləri ilə ilkin tanışlıq onun Azərbaycan ədəbiyyatı tarixi üçün tədqiq olunmağa layiq sənətkar olduğunu göstərir.

Ərdəbildə mədrəsə təhsili alıb doğma yurdu Muğana qayıdan və burada ədəbi yaradıcılıqla məşğul olan Məhəmmədəli bəy Məcruh Muğaninin tərcümeyi-halı, xüsusən də təvəllüd tarixi haqqında əlimizdə səhih məlumat yoxdur. Lakin jurnalist-etnoqraf Ənvər Çingizoğlunun tədqiqatlarında şairin təvvəllüdü ilə bağlı bəzi qeydlərə rast gəlirik. Belə ki, Ə.Çingizoğlu "Avşarlar"[3] kitabını yazarkən İran kitabxanalarında araşdırmalar aparmış, farsdilli mənbələrdə Məcruh Muğaninin adına və qısa məlumatlara rast gəlmişdir. Bu məlumatlara əsasən, tədqiqatçı şairin təvəllüd tarixini 1823-cü il, doğum yerini isə Muğan olaraq qeyd etmişdir. Ə. Çingizoğlunun təqdim etdiyi bu məlumatın sonunda Məcruh Muğaninin "Divan"ına daxil olan müxəmməsin əlavə edilməsi mənbənin inandırıcılığını artırsa da, şairin doğum tarixi hələ də mübahisəli olaraq qalır.

[3] Çingizoğlu, Ə. Avşarlar / Ə. Çingizoğlu, A. Aydın. – Bakı: Şuşa nəşriyyatı, – 2008. – s. 3.

Məcruh Muğaninin yaradıcılığını araşdıran T. Sadıqovanın 1984-cü ildə "Elm və həyat" jurnalında dərc edilən "Yeganə əlyazma" adlı məqaləsində "Divan" və şairin adı çəkilən təzkirələr barədə məlumatlar yer alır[4].

Tərcümeyi-halını öyrənmək üçün müraciət etdiyimiz təzkirələrdən yalnız üçündə şairin adına rast gəlmək olar. Onun haqqında ilkin məlumata etibarlı mənbələrdən sayılan "Danişməndani-Azərbaycan" təzkirəsində rast gəlirik. Məhəmmədəli Tərbiyətin bu əsərində şairin nə həyatı, nə yaradıcılığı, nə də şeirləri haqqında məlumat verilir. Məlumat 3 cümlə ilə yekunlaşır: *"Seyid Əzim Şirvani ilə onun arasında mübahisə və mücadilə olardı. Məcruh Muğani, Mirzə Əli Məcmər Dəvəçili* (Dəvəçi ya Şüturban Təbrizin məhəllələrindən birinin adıdır) *və Məcnun Təbrizinin "Hədiqətüş-şuəra" əsərində adları çəkilən şairlərdəndir. Onlar türk dilində şeir yazmışlar"*[5].

İkinci mənbə Seyid Əzim Şirvaninin təzkirələridir.[6] O, təzkirələrində şairin iki şeirindən nümunə gətirmiş və özünün "Məcruh Muğaniyə" adlı qəsidəsini "Divan"ına daxil etmişdir[7]. Məhəmmədəli Tərbiyətin təzkirəsində verilən məlumata əsasən, S.Ə.Şirvani ilə Məcruh arasında mübahisələr yaşanmışdır.

Şairin adı qeyd olunan qaynaqlardan biri də "Süxənvərani-Azərbaycan" əsəridir. Cənubi Azərbaycan alimi və ədəbiyyatşünası Əziz Dövlətabadinin fars dilində yazdığı əsərdə X-XX əsrlərdə Azərbaycanın müxtəlif bölgə və şəhərlərində yaşayıb-yaratmış şairlər və ədiblər haqqında məlumat toplanmışdır[8].

İranlı tarixçi Pərviz Zare Şahmərəsinin fars dilində qələmə aldığı "Qacarlar dövründə türk dili" adlı məqaləsində də Məcruhun adına rast

---

[4] Sadıqova, T. Yeganə əlyazma // – Bakı: Elm və həyat, – 1984. №3, – s.13-14.

[5] Tərbiyət, M. Danişməndani-Azərbaycan: Azərbaycanın görkəmli elm və sənət adamları / M.Tərbiyət, – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1987. – s. 222.

[6] Şirvani, S.Ə. Təzkirə // S.Ə.Şirvani. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Fond №5, s.188.

[7] Şirvani, S.Ə. Seçilmiş əsərləri: [3 cilddə] / S.Ə. Şirvani. – Bakı: Avrasiya Press, – c.2. – 2005. – s. 175.

[8] Dövlətabadi, Ə. Süxənvərani-Azərbaycan / Ə. Dövlətabadi. – Bakı: Elm və təhsil, – 2022. – s.2.

gəlirik.[9] Məqalədə Qacarlar dövründə türk dilində yazan şairlərdən bəhs edilir. Daha bir mənbə Azərbaycan maarifpərvəri Hüseyn Əfəndi Qayıbovun tərtib etdiyi "Azərbaycanda məşhur olan şüaranın əşarına məcmuəsi" adlı dördcildlik təzkirədir. Əlyazmalar İnstitutunun fondunda saxlanılan M-133 şifrli əlyazma kitabının 1004-cü səhifəsində Məcruh Muğani haqqında qısa məlumat verilmişdir:

مخمّس با مسدّس مستزادتامّ شاعر محمّدعلی بک مجروح تخلّص بن محمّد رضا بک شیروانّی ال اصل ساکن مغان فی قریهّ.

(Əslən Muğan kəndinin sakini olan şirvanlı Məhəmmədrza bəyin oğlu "Məcruh" təxəllüslü şair Məhəmmədəli bəyin müxəmməsi-müsəddəsi-müstəzadı.)

O, Məcruh Muğaninin *"Yaz oldu, genə bülbülü-şeyda gələcəkdür"* misrası ilə başlayan müxəmməsini bütünlüklə öz kitabına daxil etmişdir[10].

Eyni müxəmməs Əlyazmalar İnstitutunun fondunda 60/2 saxlama vahidi altında mühafizə edilən Mirzə Fətəli Axundzadənin şəxsi arxivində də saxlanılır[11]. Dəftərçədə yazılan şeirin müəllifinin adı qeyd edilsə də, nə vaxt və harada yazıldığı barədə məlumat verilmir.

Salman Mümtazın Əlyazmalar İnstitutunda saxlanılan arxivindəki materiallar içərisində Məhəmmədəli bəy Məcruh Muğaninin lirik, satirik şair Mirzə İsmayıl bəy Qasirlə məktublaşmalarına, şeirləşmələrinə də rast gəlirik.

Qasirin Məcruha yazdığı məktublar hazırda Əlyazmalar İnstitutunun fondunda mühafizə edilən B-1546/8188 şifrli qovluqda da saxlanılır. Qovluqdakı şeirlərin əksəriyyəti farscadır, materiallar içərisində "Gördün yenə cananımı canan arasında" misrası ilə başlanan "Qəzəli-türki" və Məcruha cavab məktubu azərbaycancadır[12].

---

[9] شاهمرسی، پرویز زارع. زبان ترکی در زمان قاجاریه
URL: https://www.gunaz.tv/fa/post/59595

[10] Qayıbov, H. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir: [4 cilddə] / H.Qayıbov. – Bakı: Mütərcim, – c.3. – 2002. – s. 237.

[11] Axundov, M.F. // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Fond №2, s.v. 60, – s. 2-5.

[12] Rəhimova, A. Mirzə İsmayıl Qasir / A.Rəhimova. – Bakı: Nurlan, – 2002. – s. 62.

Məhəmmədəli bəy Məcruh Muğani haqqında daha bir məlumata "Mirzə Baxış Nadimin Divanı"[13] adlandırılmış şeirlər kitabında təsadüf edirik.

Əlyazma avtoqraf nüsxə deyil, Ağakərim Canıbəyli tərəfindən orijinaldan köçürmədir. 250 səhifəlik əlyazmada şairin adı çəkilir: *"...həməsri və dostu olan şairlərdən Molla İbrahim Asi təxəllüs Salyani və Məhəmmədəli bəg Mücrüm təxəllüs Muğani də Mirzə Baxışı nəvahili olaraq tanıtmışlar"*[14].

Canıbəyli Məcruhla bağlı məlumatını səhifənin sonundakı ikinci qeyd ilə yekunlaşdırır: *"Məhəmmədəli bəg (Mücrim) Muğani. Bu şəxsin kim olduğunu həqqilə təyin edə bilmədim. Vəqt Nadimlə yazışmasından əslən şirvanlı olması və ruslar tərəfindən Muğana məmur təyin olunması meydana çıxır"*[15].

Şairin "Divan"ının Əlyazmalar İnstitutunda saxlanılan əlyazması mükəmməl vəziyyətdə olmadığından yazılma tarixini müəyyənləşdirmək, həmçinin içərisindəki bəzi şeirləri oxumaq təəssüf ki, mümkün deyildir[16]. Amma xəttin və kağızın növünə görə əlyazmanı XIX əsrin birinci yarısına aid etmək olar.

"Divan"da yer alan şeirlər şairin doğma dilində, Azərbaycan dilində yazılmışdır. Şeirlərin əvvəlində onların mövzusundan, kimə və ya hansı hadisəyə həsr edildiyindən bəhs edən farsca başlıqlar var. Şairin şəxsi həyatında baş verən hadisələrə də aydınlıq gətirən başlıqlarda şeirlərin yazılma səbəbi və kimə ithaf edildiyi izah edilir. Başlıqları oxuduqca "Divan"dakı şeirlərin biri digərini izləyən hadisələr zəncirindən ibarət olduğunu görmək olar. Bunlara əsasən də, "Divan"ın avtobioqrafik səciyyə daşıdığını irəli sürmək mümkündür.

Əlyazmadakı şeirlər qəsidə, məsnəvi, müxəmməs, qoşma, gəraylı kimi lirik şeir formalarındadır.

---

[13] Nadim, M.B. Seçilmiş əsərləri / M.B. Nadim. Tərt. ed. P. Kərimov, R. Kərimov. – Bakı: Alatoran, – 2018. – 250 s.

[14] Nadım, M.B. Şeirlər // M.B.Nadim. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondu. – D-350, s.3.

[15] Nadim, M.B. Seçilmiş əsərləri / M.B. Nadim. tərt. ed. P. Kərimov, R. Kərimov. – Bakı: Alatoran, – 2018. – 250 s.

[16] Ələkbərova, N. Məhəmmədəli bəy Məcruh Muğani "Divan"ının məzmunu // – Bakı: Filologiya məsələləri, – 2019. №13, – s. 424.

Tədqiqat göstərir ki, Məcruh Muğani dövrünün tanınmış şairlərindən olsa da, onun yazılı irsi tədqiqatdan kənarda qalmışdır.

I Fəslin **"Divan"ın paleoqrafik, qrafik və orfoqrafik xüsusiyyətləri"** adlanan ikinci paraqrafı üç bənddən ibarətdir. **"Paleoqrafik xüsusiyyətlər"** adlı birinci bənddə əlyazma haqqında geniş məlumat verilir. Məcruh Muğaninin avtoqraf nüsxəsi hesab etdiyimiz B-756/2375 şifrli "Divan" əlyazması haqqında ilk məlumat 1963-cü ildə çap olunmuş "Əlyazmalar kataloqu"nun I cildində verilmişdir[17].

"Divan"ın ölçüsü "18x21" sm, həcmi 115 vərəqdən ibarətdir. Əlyazma Şərq üsulu ilə paginasiya olunmuşdur (vərəqlənmə). Şikəstə xətti ilə yazılmış əlyazmanın əvvəli və sonu naqisdir. Səhifələrdə beytlərin sayı fərqlidir. Şeirlər qara mürəkkəblə, başlıqlar isə qırmızı mürəkkəblə ağ-saya vərəqlərə yazılmışdır. Kitab tünd qırmızı dəri ilə cildlənmişdir. İlkin məlumata görə, əlyazma kitabı əvvəl cildsiz olub və sonradan bərpa edilib.

Başlanır:

...محشر بیزلره فریادرس بیش کیمسه دور
اولمشوق شرع رسوله تابه فرمان کزک

Bitir:

یقلمش مشتریلر بوندن اوتری
قمو ذربیه هواو آدم

Bu bənddə, həmçinin şairin şeirlərinin saxlanıldığı cünglər haqqında da məlumat verilmişdir.

İkinci bənd **"Qrafik xüsusiyyətlər"** adlanır. Dissertasiyada göstərilir ki, Məcruh Muğani "Divan"ının əlyazmasında sait səslər dörd hərflə ifadə olunub. Məcruhun dilində işlənən "a" saiti sözün əvvəlində məddəli və məddəsiz (ا) , söz ortasında sadəcə əlif, söz sonunda isə əlif və ya "hə" (ه) qrafemi ilə işarələnib. Mətndə bəzi sözlərin əvvəlində dodaqlanan saitlər "eyn" (ع) qrafemi ilə də işarələnib: عورت (övrət), عذر (üzr). "Divan"da bəzən dodaqlanan saitlər sadəcə "əlif"lə (ا) işarələnib: امید (ümid), الفت (ülfət). Məcruhun "Divan" əlyazmasında "sağır nun"un yalnız نک qrafik işarəsindən istifadə olunduğunu görürük: سنکا (sana). Əlyazmada eyni sözün müxtəlif variantlarda həm sağır nun, həm də

[17] Əlyazmalar Kataloqu: [2 cilddə] / – Bakı: Elm, – 1. c. – 1963. – 187 s.

nunla yazıldığı faktlarına da rast gəlinir: حالنه (halına), حالنکا (halına). "Divan"da bir sözün iki qrafik variantda yazıldığı faktları da mövcuddur.

İkinci paraqrafın **"Orfoqrafik xüsusiyyətlər**" adlı üçüncü bəndində qeyd edilir ki, "Divan" əlyazmasının orfoqrafiyası dövrünə uyğundur və müasir dil baxımından arxaik olaraq XIX əsr yazı dilimizin spesifik cəhətlərini özündə birləşdirir. Əlyazmada vahid orfoqrafiya norması yoxdur. Şeirlərdəki orfoqrafik faktlar 32 bənd üzrə sıralanır:

ب [b] // پ [p] əvəzlənməsi (تاپوپ – tapup , تاپوب – tapub)

د [d] // ت [t] əvəzlənməsi (توت – tut , دوت – dut)

ق [q] // خ [x] əvəzlənməsi ( چوخ – çox , چق – çoq )

ق [q] // غ [ğ] əvəzlənməsi (قم – qəm, غم – ğəm)

ح [h] // ق [q] əvəzlənməsi ( قمو – qamu, هامی – hamı)

ک [g] // ی [y] əvəzlənməsi ( کنه – genə, ینه – yenə) və s.

Göstərilir ki, "Divan"da birinci şəxsin təki "mən" və "bən" (من, بن) şəklində iki imlada yazılsa da, birinci şəxs əvəzliyinin təki ismin yönlük halında yalnız "bana" (بنا) formasında işlənib. Bəzi sözlərdə səslər qoşalaşdırılır, təşdid qoyulmur (قول لار – qullar), bəzən isə hərflərin cütləşdirilməsi ilə yanaşı təşdiddən də istifadə edilir (الّلار – əllər, کوزلّلر – gözəllər). Əlyazmada daha bir spesifik cəhət bundan ibarətdir ki, bəzi kar samitlər cingiltili qarşılığı ilə birləşdiyi zaman üzərilərinə təşdid qoyulur ( مملکتدّه – məmləkətdə). İsmin cəm şəkilçisi sonu "l" hərfi ilə bitən sözlərə qoşulduqda həm iki "ل" hərfi yazılır, həm də qoşalaşdırıcı təşdid işarəsindən istifadə olunur (بلبلّلر – bülbüllər). Üçünücü şəxsin cəmində bəzi hallarda "-o" ilə "-lar" şəkilçisi arasındakı "-n" ünsürü "-l" ünsürünə keçir. Bu səbəbdən üçüncü şəxsin cəmi "onlar", "ollar" (اونلار, اول لار ) olaraq iki formada qarşımıza çıxır.[18] Müasir Azərbaycan dilimizdən fərqli olaraq, "Divan"ın dilində sonu "k" ilə bitən sözlərə şəkilçi artırıldıqda "k" "g"-ya keçir. Bu hal Məcruhun yaradıcılığında normaya çevrilir (کورمکه – görməgə). Sonu "l" ilə bitən sözlərdə feilin qeyri qəti-gələcək zaman şəkilçisi "-ar"[2] I şəxsin təkində şəkilçi qəbul edərkən assimilyasiyaya uğrayaraq düşür. Şəkilçi "l" hərfi ilə əvəzlənir, eyni zamanda hərfin üzərinə qoşalaşdırıcı təşdid (ّ) işarəsi

[18] Ələkbərova, N. Məcruh Muğani "Divan"ında əvəzliklərin işlənmə tezliyi // Bakı: Qərbi Kaspi Universiteti, Elmi xəbərlər. – 2025. №1, – s. 12.

qoyulur: كلّم – gəlləm, بيلّم – billəm, اولّام – ollam.

Üçüncü paraqraf **"Divan" və digər mənbələrdəki nümunələrin tekstoloji təhlili"** adlanır. "Divan" əlyazmasının nüsxəsi olmadığından şairin fərqli mənbələrdə saxlanılan əsərləri üzərində tədqiqat apararkən bəzi şeirlərində düzəlişlər aparıldığını, fərqli sözlərin əlavə edilərək mətnin təhrif olunduğunu görmək olar. Dissertasiyada qeyd edilir ki, müqayisəli-tekstoloji təhlil zamanı müəllifin öz xətti ilə yazılmış avtoqraf nüsxəsi hesab edilən "Divan" əlyazmasından[19], Mirzə Baxış Nadimə yazılan mənzum məktubdan[20], Hüseyn Əfəndi Qayıbovun tərtib etdiyi "Azərbaycanda məşhur olan şüaranın əşarına məcmuədir" adlı dördcildlik təzkirə[21] və Mirzə Fətəli Axundzadənin şəxsi arxivindən[22] əldə edilən "Gələcəkdir" rədifli müxəmməsdən istifadə edilmişdir.

Əlyazmalar şərti olaraq A, B, C və D hərfləri ilə işarələnib:

1. A – AMEA Əlyazmalar İnstitutunun fondunda mühafizə edilən B-756 şifrli əlyazma;
2. B – AMEA Əlyazmalar İnstitutunun fondunda saxlanılan D-350 şifrli əlyazma;
3. C – AMEA Əlyazmalar İnstitutunun fondunda mühafizə edilən M-133 şifrli əlyazma;
4. D – AMEA Əlyazmalar İnstitutunun fondunda mühafizə edilən s.v. 60/2 şəxsi arxiv materialı.

D-350 şifrli əlyazmadakı şeir beyt sayına görə "Divan"dakından fərqlənir. Belə ki, A əlyazmasında verilən 34 beytdən[23], B

[19] Muğani, M. Divan // M.Muğani. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu əlyazma fondu. – B-756, 115 v.

[20] Nadım, M.B. Şeirlər // M.B.Nadim. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondu. D-350

[21] Qayıbov, H.Ə. Azərbaycanda məşhur olan şüaranın əşarına məcmuədir: [4 cilddə] / H.Ə.Qayıbov. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondu, M-133, – c.3. – 1004 s.

[22] Axundov, M.F. // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Fond №2, s.v. 60, s. 2-5.

[23] Muğani, M. Divan // M.Muğani. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar

əlyazmasındakı isə 27 beytdən ibarətdir[24].

Mənzumənin ikinci beytinin ikinci "*Saliki-rahi-tərigətdə dəlili-rahi-rəvan"* misrasındakı "rahi" sözü B variantında "əhli" şəklində verilmişdir.

Dördüncü beytin ikinci "*Göstərür axır ona səd heyf ru axır xəzan"* misrasındakı "axır" sözü B variantında "xəzan" kimi qeyd edilmişdir.

A əlyazmasında on üçüncü beytin ikinci *"Sərzənişdür sərbəsər xəlq ehtiram eylər güman"* misrasındakı "ehtiram" sözü B əlyazmasında "ehtimal" variantında yazılmışdır.

A variantındakı on beşinci beytin "*Keçdi, bir əyyam idi ol, kim yetişməz əl dəxi"* misrasındakı "kim yetişməz əl dəxi" ifadəsi B variantında "əl yetişməz bir dəxi" şəklində qeyd edilmişdir.

A variantında on altıncı beytin *"Tapmıyanda pirdən növrəs, sənəmlər umduqin"* birinci misrasındakı "sənəmlər" sözü B variantında "cəvanlar" şəklində verilmişdir.

A variantında iyirmi üçüncü beytin ikinci "*Şahsevəndir qızları küçik bəg adlu Atda xan"* misrasındakı "küçik bəg adlu Atda xan" ifadəsi B variantında "kiçik bəy, adı Əfəndi xan" şəklində yazılmışdır.

A variantında yer alan iyirmi dördüncü beyt B variantında yoxdur.

İyirmi beşinci beytin birinci misrasındakı "söyləməz" sözü B variantında "söyləmək", ikinci misradakı "sözdən bəyan" birləşməsinin mənası tamamilə dəyişdirilərək B variantında "sizdən əyan" şəklində verilmişdir.

Araşdırmaya cəlb olunan A[25], C[26] və D[27] əlyazmalarında yer alan "Gələcəkdir" rədifli müxəmməsini ümumi olaraq müqayisə edərkən

---

İnstitutu əlyazma fondu. B-756, s.19 b.

[24] Nadım, M.B. Şeirlər // M.B.Nadim. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondu. – D-350, s.157.

[25] Muğani, M. Divan // M.Muğani. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu əlyazma fondu. B-756, s.96 b.

[26] Qayıbov, H.Ə. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir: [4 cilddə] / H.Ə.Qayıbov. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondu, M-133, – c.3. – 1004 s.

[27] Axundov, M.F. // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Fond №2, s.v. 60, s. 2.

çoxlu sayda fərqliliklər üzə çıxıb. Bu nüsxələrdə müxəmməsin başlaması və bitməsi eynidir.

Müqayisə zamanı fərqliliklər ilk olaraq beytlərdəki misraların sayında özünü göstərməyə başlayır. Belə ki, A variantında XI bənddə 5 misra yer alsa da, C və D variantlarında misraların sayı dörddür.

A variantında on birinci bəndin ilk iki misrası:

*Halınız necə olur vaqif ola ğafili-xəstə, pəjmürdə, şikəstə,*
*Yox aləmara ta ona təbi-dili-şustə, Şirvanda xocəstə. –*

kimi verilsə də, C və D nüsxələrində

*Halınız nə olur vaqif ola ğafili-xəstə, Şirvanda xocəstə,*
*Bir şəddi duta, sındura fındıqcavü püstə, durmuş hələ pəstə. –*

şəklində yazılmışdır. Göründüyü kimi, A variantında yer alan ikinci misra C və D-də yer almamışdır, həmçinin sözlərin yerdəyişməsi və əvəzedilməsi hadisəsi də baş vermişdir.

A nüsxəsində olan "*Qan qaynayubən pərtövi-sevda gələcəkdür, göstərməgə xidmət*" misrasındakı "xidmət" sözü digər nüsxələrdə "xiffət" kimi verilmişdir.

C nüsxəsində olan "*Çox müntəzirəm qasidə, çün nikqədəmdir, lütfi niyə kəmdir*" misrası A və D nüsxəsində "*Çox müntəzirəm qasidə çün feyzi-qədəmdür, nitqin niyə kəmdür*" şəklindədir.

A və D nüsxələrinin III bəndində yer alan "lütfinlə olur bəndəyə" birləşməsi C nüsxəsində "lütf eyləyüb et bəndəyə" birləşməsi şəklində verilib.

Yuxarıda qeyd olunanlar yalnız Məcruh Muğaninin əsərlərinin müxtəlif nüsxələri arasındakı mətn fərqlərini üzə çıxarmır, həm də fərqlərin onun yaradıcılığının izlənilməsi baxımından əhəmiyyətini göstərir. Belə qənaətə gəlmək olar ki, onun əsərlərinin ən kamil və etibarlı nüsxəsi Əlyazmalar İnstitutunda qorunan "Divan"ıdır.

Dissertasiyanın ikinci fəsli "**Məcruh Muğani "Divan"ının lüğət tərkibi**" adlanır, bu fəsil dörd paraqrafda öz elmi şərhini tapmışdır. "Divan"da müxtəlif məna sahələrini əhatə edən sözlərin öz əksini tapması Məcruhun dilinin leksik zənginliyindən xəbər verir.

**"Divan"ın dilində tematik söz qrupları"** adlı birinci paraqrafda "Divan"da zənginliyi və əlvanlığı ilə diqqəti cəlb edən leksik vahidlər mövzu üzrə (təbiət leksikası, məhəbbət leksikası, qohumluq bildirən sözlər, heyvan adlarını bildirən sözlər, somatik leksika, məişət leksikası

və s.) müxtəlif tematik qruplara ayrılaraq araşdırılıb.

II fəslin birinci paraqrafında yer alan "Təbiət leksikası" bölməsində bitki, ağac, gül və meyvə adları araşdırılır. Dissertasiyada bu leksik vahidlərin şairin qələmində poetik ifadə vasitəsinə çevrilməsindən bəhs edilir. Məcruh lirik qəhrəmanın bədii portretinin təsvirində ağac və gül adlarından geniş istifadə edir. Məsələn, gözəlin qamətini şimşad və sərvlə, üzünü, simasını güllərlə müqayisə edir. Şair məşuqənin üzünün gözəlliyini təsvir edərkən buxağını nəstərənə, yanaqlarını gülə, dodaqlarını Bədəxşan ləlinə bənzədir.

Məcruhun şeirlərində gözəlin təsviri, vəsfi, aşiqin əzab və iztirabları yüksək emosionallıq yaradan poetik sözlərlə ifadə olunub ki, bu sözlər "Məhəbbət leksikası" bölməsində araşdırılıb. "Divan"ın lüğət tərkibindəki sözlərin böyük qismini türk mənşəli və ərəb-fars dillərindən alınmış sözlər (məhəbbət, eşq, aşiq, yar, əğyar, məhbub, və s.), şairin dilində fəal işlənən izafət tərkibli sözlər (bəhri-eşq, zülfi-pərişan, dəvayi-dərdi-eşq, və s.), həmçinin mürəkkəb feillərdən (izhar qılmaq, fəryad etmək, və s.) ibarət məhəbbət leksikası təşkil edir.

"Məişət leksikası" adlı hissədə yazılı abidələrdə bu leksikanın araşdırılmasının dil tarixi baxımından əhəmiyyəti vurğulanır. Dissertasiyada Azərbaycan xalqının məişətinə aid əşya və anlayışları ifadə edən, mənşəcə türk və ərəb-fars sözlərindən alınmış leksik vahidlər bir neçə qrup üzrə təsnif edilib: 1. Məişətdə işlənən əşyaların adını bildirən sözlər (balış, mum, piyalə və s.); 2. Geyim adları bildirən sözlər (köynək, ətək, xələt, və s.); 3. Bəzək əşyaları, qiymətli daş və metal adları (tac, muncuq, mərcan, ləl, və s.); 4. Ətriyyat adı bildirən sözlər (müşk, ənbər); 5. Ərzaq və yemək adları (duz, çörək, pəndir, bəhməz, bal və s.).

Şairin dilində işlənmiş insan orqanizmini ifadə edən sözlər "Somatik leksika" bölməsində təhlil edilir.

İkinci paraqraf **"Xüsusi ad bildirən söz qrupları"** adlanır. Bu hissədə əsasən antroponimlər, toponimlər, kosmonimlər və etnonimlərdən bəhs olunmuşdur. Şairin dilində müxtəlif üslubi məqamlarda işlənən antroponimlər üç yarımqrup üzrə tədqiq olunub:

a) tarixi və əfsanəvi şəxsiyyətlərin adları (Qacar, Nuşirəvan, İskəndər və s.);

b) dini şəxsiyyətlərin adları (Əli, Hüseyn, Məryəm və s.);

c) ədəbi qəhrəmanların adları (Məcnun, Leyli, Xosrov, Vamiq, Vərqa və s.).

"Divan"dakı toponimlər əsasən şərq kontekstində mövcud olan ölkə və şəhər adlarını bildirir. Məcruhun şeirlərində işlənən yer adları onun Şərq dünyasına yaxşı bələd olduğunu göstərir. Dissertasiyada toponimlərin eyni zamanda bir üslubi vasitə kimi poetik-semantik mənanı gücləndirmək üçün mənbə rolu oynadığı da diqqətə çatdırılır. Məsələn, şair müqayisə məqsədi ilə Pamirdə öz ləli ilə məşhur olan Bədəxşan toponiminə müraciət edir: "*Tər buxaqın nəstərəndür, arizin güldür nədür, Yoxsa sölərlər ləbi ləli-Bədəxşan sənmisən*".

"Divan"da Fərat, Ceyhun (Amurdərya), Ərəs (Araz), Nil olmaqla bir neçə hidronimə rast gəlinir ki, onlar həm həqiqi, həm də məcazi mənada işlənmişdir. Məsələn: *"Əvvəl dəmdə özin yetürdi Məcnun, Göz yaşını qıldı çayı-Ceyhun*".

Məcruh Muğaninin dilində kosmonimlər əsasən poetik ifadə vasitəsi olaraq işlənmişdir. Şeirlərdə mah, əxtər, xurşid, hilal, sitarə, şəms, mehr kimi müxtəlif göy və göy cisimləri adlarına rast gəlinir. Şair obrazın portretini daha bədii formada canlandırmaq üçün kosmonimlərdən geniş istifadə etmişdir. Bu sözlər poetik bənzətmə vasitəsi olaraq lirik qəhrəmanın gözəlliyinin hərtərəfli təsvirinə xidmət edir.

Şeirlərdə geniş şəkildə olmasa da, etnonimlərdən istifadə edilmişdir: şahsevən, qızılbaş, tat və s.

**"Alınma sözlər"** adlı üçüncü paraqrafda alınma sözlər təhlil edilir. Dissertasiyada alınma sözlər: 1. ərəb-fars mənşəli sözlər; 2. rus-Avropa mənşəli sözlər qrupları üzrə araşdırılır, onların üslubi məqamlarının müəyyənləşdirilməsinə cəhd edilir. Qeyd edilir ki, "Divan"da işlənən ərəb-fars sözlərinin bir qismi Azərbaycan dilinin qrammatik qanunlarına uyğunlaşan, mənası asan başa düşülən, hazırda dilimizdə işlənən sözlər olsa da, bir qismi xalq dilinə daxil olmayan, qəliz, anlaşılmayan, termin səciyyəli sözlərdir.

Tədqiqat zamanı aydın olur ki, şairin şeirlərində çar inzibati idarəsinin yaranması ilə bağlı rus dili və bu dil vasitəsilə başqa dillərdən keçən sözlər işlənmişdir ki, bunların əsas hissəsi vəzifə adları bildirən sözlərdir: zaqon, ğoburnator, pristöv, nəçəllik, qnyaz, durbin və s.

II fəslin dördüncü paraqrafı **"Arxaik sözlər"** adlanır. Müəyyən

edilir ki, "Divan"da arxaik sözlərin sayı azdır. Onların bir qismi müasir ədəbi dilimiz üçün arxaik sayılsa da, hazırda dialekt və şivələrimizdə işlənir. Digər qismi formasını saxlayaraq məzmununu, bəziləri isə fonetik quruluşunu dəyişib. Arxaizmlər leksik (al, ari, bəsi, bulmaq, dişrə, eyü, kəndi, qılmaq, varmaq, yapmaq, yek və s.), semantik (aş, irağ, ər və s.), fonetik (qamu, toprak, yüz, yüzmək, dutmaq, şəhr, ol, şimdi, urmaq, yengi və s.) olmaqla üç kateqoriya üzrə təhlil edilir.

Leksik arxaizmlərdən sayılan və "Kitabi-Dədə Qorqud" yazılı abidəsində, klassiklərimizin dilində, həmçinin müasir türk dillərində rast gəlinən "ari" sözü hazırda dialekt və şivələrimizdə "ari" (Quba, Bakı) və "arı" (Ağdam, Qazax, Tovuz, Şəmkir, Şahbuz, Füzuli) şəklində "təmiz, saf" mənasında da işlənməkdədir[28]. "Tapmaq" sözü ilə eyni mənada işlənən "bulmaq" sözü onun təsiri ilə dildən çıxsa da, köhnə nəsil nümayəndələrinin danışıq dilində hələ də işlənməkdədir[29]. Diqqətə çatdırılır ki, semantik arxaizmlər arasında yer alan və Məcruhun dilində igid, qəhrəman mənasında işlənən "ər" sözü "Dədə Qorqud" dastanı və klassiklərimizin dilində eyni mənada işlənsə də[30], "Divanü Lüğət-it-Türk"də bu leksem "kişi, adam" mənalarında qeyd edilib.

"Yüz", "yüzmək" kimi fonetik arxaizmlərdə müasir dil baxımından "y" samitinin işlənməsi səsartımı təsiri bağışlasa da, bu qədim dövr dil xüsusiyyətlərindən sayılır. Qeyd edilir ki, "Divan"da işlənən ol (o) işarə və şəxs əvəzliyi qədim türk abidələrinin dilində geniş işlənmiş[31], müasir dilimiz üçün tam arxaikləşmişdir. Yazılı abidələrimizdə və klassiklərimizin dilində işlək olmuş[32] "şimdi"

[28] Azərbaycan dilinin dialektoloji lüğəti / – Bakı: Şərq-Qərb, – 2007. – 568 s.
[29] Qəhrəmanov, C. Əsrarnamə / C.Qəhrəmanov. – Bakı: EA, – 1964. – 145 s.
[30] "Kitabi-Dədə Qorqud"un izahlı lüğəti / – Bakı: Elm, – 1999. – 204 s.; Cavadova, M. Şah İsmayıl Xətainin leksikası / M.Cavadova. – Bakı: Elm, – 1977. – 213 s.; Zakir, Q.B. Seçilmiş əsərləri / Q.B.Zakir. – Bakı: Yazıçı, – 1984. – 384 s.
[31] Kaşğari, M. Divanü Lüğat-it-Türk: [4 cilddə] / M. Kaşğari. Nəşrə hazırlayan: R.Əskər. – Bakı: Ozan, – c.2. – 2006. – 400 s.; Боровков, А.К. Лексика среднеазиатскрго тефсира XII-XIII в. / А.К. Боровков. – Москва: – 1963. –367 с.
[32] Əliyeva, S. Füzulinin türkcə "Divan"ının dilinin leksikası: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, – 2012. – 152 s.; Azərbaycan klassik ədəbiyyatından seçmələr. XII-XIII əsrlər Azərbaycan şeiri: [3 cilddə] / tərt.ed. C.Qəhrəmanov. –

arxaizmi Məcruhun dilində də geniş istifadə edilmişdir.

"Divan"da əsas nitq hissələri ilə yanaşı, köməkçi nitq hissələrinə aid arxaizmlərdən də (birlə, dəxi, vəli, leyk, ilən, gər və s.) geniş istifadə edilib.

Dissertasiyanın III fəsli "**Məcruh Muğani "Divan"ının dilində leksik-semantik söz qrupları və söz yaradıcılığı**" adlanır. **"Leksik-semantik söz qrupları"** adlı birinci paraqrafda ilk olaraq omonimlər təhlil edilir. Omonimlərin aydınlıq kəsb etməsində yazıçıların fərdi, özəl üslubları, ədəbi dövr, ədəbi dillə ümumxalq dilinin yaxınlığı, dilin lüğət tərkibi və s. mühüm rol oynadığı vurğulanır[33].

**"Omonimlər"** bəndində "Divan"ın lüğət tərkibindəki omonimlər leksik-semantik (eyni nitq hissələrinə daxil olanlar – dağ, gün, saz, dil, ay, şam və s.) və leksik-qrammatik (müxtəlif nitq hissələri – ol, yüz, min, yaş və s.) olmaqla iki qrup üzrə təhlil edilir. Ümumiyyətlə, bu leksik vahidlər ədəbi-bədii yaradıcılıqda geniş istifadə edilən bədii ifadə vasitələrindən biridir[34], misralara emosionallıq, ifadəlilik gətirərərək poetik mətnə orijinallıq verir. Omonimlər poetik hadisə kimi şeirdə ahəng və melodikliyin formalaşmasında mühüm rol oynayaraq mətnə özünəməxsus poetik çalar qazandırır, onların üslubi-semantik funksiyasını və bədii-estetik imkanlarını artırır. "Divan"dan gətirilən nümunələrdə bu xüsusiyyət öz təsdiqini tapır: *Qoymuşdun payıza vədəni, nigar, / Yay çıxınca yayə döndüm aşikar"* və s.

İkinci bənd **"Sinonimlər"** adlanır. Şairin poeziya dili sinonim sözlərlə zəngindir, yaşadığı ictimai-tarixi dövrlə əlaqədar şeirlərindəki sinonim cərgələr türk, ərəb və fars mənşəli sözlərdən ibarətdir.

Bu bənddə Məcruhun dilində işlənmiş sinonim sözlərin semantik-üslubi və qrammatik xüsusiyyətləri araşdırılır, "Divan"dakı sözlər adlarla (isim, sifət, say, zərf) və feillərlə ifadə olunmuş sinonimlər olmaqla iki qrup üzrə təsnif edilir. Adlarla ifadə olunmuş sinonimlərdə türk mənşəli sözlərlə ərəb-fars mənşəli sözlərin hesabına yaranmış

---

Bakı: Şərq-Qərb, –c.3. – 2005; Cəfərova, S. Qövsi Təbrizinin əsərlərinin dilinin leksikası / filologiya üzrə fəlsəfə doktoru dis. / – Gəncə, 2000. – 139 s.

[33] Məhərrəmova, R. "Kitabi Dədə Qorqud"un söz xəzinəsi / R.Məhərrəmova. – Bakı: Nurlan, –2007. – 192 s.

[34] Qurbanov, A. Müasir Azərbaycan ədəbi dili: [2 cilddə] / A. Qurbanov. – İstanbul: İmak. – 1. c. – 2019. – 464 s.

sinonim cərgələrin çoxluq təşkil etdiyi diqqəti çəkir: hal, ovqat, əhval; dilbər, yar, nigar, sənəm. Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbi dilinin zənginləşməsində bu yol mühüm vasitələrdən biridir.

Birinci paraqrafın **"Antonimlər"** adlanan üçüncü bəndində əksmənalı sözlər təhlil edilir. "Divan"da geniş istifadə edilən antonimlər abidənin dilini daha təsirli və obrazlı edib. Dissertasiyada şairin hadisələrin qarşılaşdırılmasında, müqayisə edilməsində antonimlərdən məharətlə istifadə etdiyi vurğulanır. Antonimlər mütləq və nisbi olmaqla iki katerqoriyada qruplaşdırılır. Mütləq antonimlər əsasən adlar (ölü-diri, qul-bəg, atlu-yəyağ, dost-düşmən və s.) və feillərdən (durmaq-yügürmək, ağlamaq-gülmək və s.) ibarət olduğu üçün iki qrupda təhlil edilib. Şair bədii təzad yaratmaq məqsədilə yalnız mütləq antonimlərdən deyil, eyni zamanda kontrastlı lövhələr yaratmaq, bəzi təzadlı hadisələri daha qabarıq formada təsvir etmək üçün müəyyən mətn daxilində antonim kimi çıxış edə bilən sözlərdən də geniş istifadə edib. Dissertasiyada "Divan"ın dilində kontekstual, yəni şairin istəyinə uyğun müəyyən şəraitdə antonim kimi çıxış edən söz və ifadələrin çoxluq təşkil etdiyi vurğulanır (xəstə-təbib, gül-bülbül, adəm-şeytan, bəhar-xəzan və s.), şairin dilində bu leksik vahidlərin bədii təzadların üzə çıxarılmasında rolu təhlil edilir. Məsələn, ayrılıqda götürəndə "xəstə" sözünün antonimi "sağlam" sözüdür. Lakin kontekst daxilində Məcruh parlaq təzadlar yaratmaq üçün sözə əlavə üslubi çalar verərək "xəstə-təbib" sözlərini qarşı-qarşıya qoyur.

III fəslin **"Söz yaradıcılığı"** adlanan ikinci paraqrafında sözyaratmanın iki üsulundan geniş bəhs edilir: morfoloji yolla söz yaradıcılığı (düzəltmə sözlər), sintaktik yolla söz yaradıcılığı (mürəkkəb sözlər).

**"Morfoloji yolla söz yaradıcılığı"** bəndində şəkilçilər ad düzəldən və feil düzəldən olmaqla iki qrupda tədqiqata cəlb edilir. Ad düzəldən şəkilçilər də, öz növbəsində a) adlardan ad düzəldən; b)feillərdən ad düzəldən qruplarında tədqiq edilir. Məcruhun dilində həm milli, həm də alınma sözlərə artırılaraq adlardan ad düzəldən şəkilçilər fəallığı ilə diqqəti cəlb edir: -lıq[4],- lu[2], -sız[4], -cıq və s.

Kiçiltmə, əzizləmə mənası ifadə edən sözlər yaradan "-cıq" şəkilçisinə "Divan"da bir neçə nümunədə rast gəlinmişdir: *Danışıbdur uşacıqlar kimi heybətə"*. Bu nümunədə qeydə alınan "uşacıq" (uşaqcıq)

sözündə olduğu kimi sonu "-q" ilə bitən sözlərə "-cıq" şəkilçisi artırıldıqda "-q" samitinin düşməsi hadisəsi "Kitabi-Dədə Qorqud"un dilində: qulacuq – qulaqcıq, Qazi Bürhanəddinin dilində: yarpacux – yarpaqcıq şəklində müşahidə edilir. "Divan"ın dilində feildən ad düzəldən şəkilçilər də məhsuldarlığı ilə diqqəti cəlb edir: -ıcı, -ış$^2$, -uş$^2$, -u$^2$, -ənək, -qan və s.

Feil düzəldən şəkilçilər adlardan feil düzəldən: -la$^2$, -lan$^2$, -laş, -a$^2$ və s.; feillərdən feil düzəldən: -ıl$^4$, -ış$^4$ –n, -ın$^4$ qrupları üzrə, Azərbaycan dilinin digər yazılı abidələri ilə müqayisəli şəkildə təhlil edilir. Araşdırmalar göstərir ki, qeyri-məhsuldar sayılan -sa şəkilçisi "Divan"ın dilində yalnız bir sözün "susamaq" feilinin tərkibində işlənmişdir: "*Kafir kimi susayubdur qanıma"*. Eyni mənzərə Qazi Bürhanəddinin "Divan"ında: *Susamışam ləbündür abi-heyvan*[35], Yusif Məddahın "Vərqa və Gülşah"ında: *Nə susadun sən bularun qanınə*[36], Qövsi Təbrizinin: *Susayıbdır qanıma əl atəşin cövlanını gör*[37] beytlərində rast gəlinir.

III fəslin son hissəsi şairin dilində işlənmiş mürəkkəb sözlərə həsr edilir. **"Sintaktik yolla söz yaradıcılığı"** adlı bu hissədə mürəkkəb sözlər mürəkkəb adlar və mürəkkəb feillər başlıqları altında iki qrupda təhlil edilir. Tədqiqat işində mürəkkəb adlar: müxtəlif mənalı sözlərin birləşməsi ilə yaranmış (dilbənd, xoşrəftar və s.), eyni sözlərin təkrarı ilə yaranmış (parə-parə, tez-tez və s.), yaxınmənalı sözlərin birləşməsi ilə yaranmış (eyş-işrət, dərd-sər və s.), antonim sözlərin iştirakı ilə yaranmış mürəkkəb sözlər (atar-utar, dəgər-dəyməz və s.) qrupları üzrə araşdırılır. Mürəkkəb adların şairin dilində müşahidə edilən üslubi özəlliklərindən bəhs edilir.

Dissertasiyada mürəkkəb feillər a) adlardan və köməkçi feillərdən düzələn mürəkkəb feillər, b) adlardan və müstəqil feillərdən düzələn mürəkkəb feillər istiqamətində təhlil olunur. Qeyd edilməlidir ki, şairin dilində "olmaq", "qılmaq", "eyləmək", "etmək" köməkçi feilləri ilə

[35] Qədimalıyeva, A. Qazi Bürhanəddin "Divan"ının leksikası / A.Qədimalıyeva. – Bakı: Nurlan, – 2008. – 183 s.

[36] Qəhrəmanov, C. Yusif Məddah. "Vərqa və Gülşah" / C.Qəhrəmanov, Z.Hacıyeva. – Bakı: Elm, – 1988. –184 s.

[37] Cəfərova, S. Qövsi Təbrizinin əsərlərinin dilinin leksikası. / filologiya üzrə fəlsəfə doktoru dis. / – Gəncə, 2000. – 139 s.

düzəlmiş mürəkkəb feillərin sayı çoxluq təşkil edir.

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqatdan əldə edilmiş elmi-nəzəri nəticələrə yekun vurulmuş, əsas müddəalar ümumiləşdirilmişdir.

1. Məcruh Muğani yaradıcılığının tekstoloji tədqiqi və leksik xüsusiyyətlərini təhlil etmək üçün "Divan"ının əlyazması, eyni zamanda şəxsi arxivlərdə, ayrı-ayrı təzkirə, cüng və fraqmentlərdə saxlanılan şeirlərin zəngin faktları əhatə etməsi baxımından həm mətnşünaslıq, həm də ədəbi dil tarixi kontekstində araşdırılması əhəmiyyətlidir;

2. Tekstoloji tədqiqatın əsas obyekti olaraq götürdüyümüz "Divan"ının əlyazmasının avtoqraf nüsxəsi olduğu müəyyənləşdirilmiş, sonu və əvvəli naqis olduğu üçün ilkin həcmini dəqiqləşdirmək mümkün olmamışdır;

3. Məcruh Muğaninin müxtəlif əlyazmalarda aşkar edilmiş ədəbi irsi "Divan"da olan nümunələrlə müqayisəli təhlil olunmuş, variant fərqləri, köçürmə xətaları ortaya qoyulmuşdur;

4. "Divan"ın qrafik-orfoqrafik xüsusiyyətlərinin tədqiqi əlyazmanın imlasının spesifik cəhətlərinin təsbitinə, eləcə də, dövrün dil və yazı mədəniyyəti, fonetik-qrafik normaları haqqında fikir söyləməyə, imladakı qeyri-sabitliyin səbəblərini aydınlaşdırmağa kömək edir;

5. Klassik Şərq poetikasının qayda-qanunlarını dərindən mənimsəyən, əruz vəznində yazdığı qəzəl, məsnəvi, qəsidə, müxəmməsləri, eyni zamanda heca vəznində yazdığı qoşmaları ilə özünü ustad şair kimi təsdiq edən Məcruh Muğani "Divan"ının xalq dilindən qaynaqlanan sadə və anlaşıqlı ifadə tərzi, real həyat hadisələrini əks etdirən şeirlərin mövzusu təbii və ürəyəyatandır;

6. Məcruh Muğani "Divan"ının lüğət tərkibinin əsas hissəsi ümumişlək sözlərdən ibarətdir. Müxtəlif mənaları ifadə edən leksik vahidlər semantikasına əsasən tematik qruplar üzrə (təbiət leksikası, məhəbbət leksikası, məişət leksikası, qohumluq bildirən sözlər, somatik leksika, onomastik leksika və s.) tədqiq edilmiş, müasir ədəbi dilimizdə işlənən leksik paralelliklər müəyyənləşdirilmişdir;

7. Məcruh Muğani "Divan"ında leksik vahidlər mənşəyinə görə qruplaşdırılmış, ədəbi irsinin məzmun, mövzu və üslubuna uyğun olaraq dilindəki alınma leksik qatın müxtəlif dillər üzrə işlənmə səviyyəsi

aydınlaşdırılmışdır. “Divan”ın dilindəki alınma sözlərin böyük bir hissəsini ərəb-fars sözləri, bir qismini isə rus və Avropa mənşəli lüğəvi vahidlər təşkil edir;

8. Klassik şeir ənənəsinə sadiq qalan ədib türk mənşəli sözlərlə yanaşı ərəb-fars mənşəli lüğət vahidlərindən geniş istifadə etmişdir. Şairin yaşadığı dövr, mənsubu olduğu ədəbi mühit və dil situasiyası bunu tələb edən amillərdir. Alınma sözlərin işlənmə dairəsi göstərir ki, fars mənşəli sözlər ərəb mənşəli sözlərə nisbətən üstünlük təşkil edir;

9. “Divan”ın dilində işlənən leksik vahidlərin müəyyən bir hissəsini arxaik sözlər təşkil edir. Bu sözlərin bir qismi vaxtilə çox işlək olmuş, müasir ədəbi dilimiz üçün tam arxaikləşmişdir. Tədqiqat göstərir ki, “Divan”ın lüğət fondunda qeydə alınan leksik, semantik və fonetik arxaizmlərin bir hissəsi Azərbaycan dilinin dialekt və şivələrində öz işləkliyini qoruyur;

10. “Divan”ın lüğət tərkibində mühüm yer tutan leksik-semantik söz qrupları olan omonim, sinonim və antonimlərin işlənmə dairəsi genişdir. Şair müəyyən fikrin ifadəsində, emosionallıq və təsirliliyi artırmaq üçün türk mənşəli və alınma sözlərdən istifadə edərək omonim, sinonim və antonim cütlüklər meydana gətirmişdir;

11. “Divan” XIX əsrdə Azərbaycan ədəbi dilində söz yaradıcılığı prosesini izləmək baxımından əhəmiyyət kəsb edir. Təhlillər göstərir ki, Məcruh Muğani ədəbi dilimizin sözyaratma imkanlarından ustalıqla istifadə etmiş, müasir dilimizdə olduğu kimi, yeni sözlərin əmələ gəlməsində morfoloji yolla sözdüzəltməyə üstünlük vermişdir. Şairin dilində bu üsulla yaranmış düzəltmə sözlər çoxluq təşkil edir;

12. Klassik ədəbiyyatımızın nümayəndəsi olan Məcruh Muğani “Divan”ının tekstoloji tədqiqi, poetik dilinin leksik qatının təhlili XIX əsr Azərbaycan ədəbi dilinin regional inkişaf mənzərəsini, fonetik-ədəbi dil normalarının sabitləşmə səviyyəsini, leksik vahidlərdə milli və alınma sözlərin müvaziliyini özündə əks etdirir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**


1. Ələkbərova, N. Məhəmmədəli bəy Məcruh Muğani "Divan"ının məzmunu // – Bakı: Filologiya məsələləri, – 2019. №13, – s. 423-430.
2. Ələkbərova, N. Məcruh Muğani "Divan"ında antroponimlər // Bakı: Filologiya məsələləri, – 2021. №6, – s. 206-214.
3. Ələkbərova, N. Məcruh Muğani şeirlərində işlənən omonimlər // – Bakı: Dil və ədəbiyyat – 2022. №1, – s.482-487.
4. Ələkbərova, N. Məhəmmədəli bəy Məcruh Muğaninin "Divan"ında bədii ifadə və təsvir vasitələri // – Bakı: Əlyazmalar yanmır – 2023. №1, – s.80-90.
5. Alakbarova, N. The literary heritage of Mahammadali bey Majruh Mughani // Актуальты питання гуманитарних наук,– 2023. №65, – c.117-122.
6. Ələkbərova, N. Məcruh Muğani lirikasında aşiq obrazı // – Bakı: "Əlyazma Kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində" beynəlxalq elmi-nəzəri konfrans,– 2023. – s. 252-255.
7. Alakbarova, N. The love lyrics of Majryh Mughani // 11th Scientific İnternational, – Ohrid-Vodici: – 2023. – s. 230-235.
8. Ələkbərova, N. Məcruh yaradıcılığında Füzuli izləri // Uluslararası Fuzuli Sempozyumu, Gazi Universitesi, – Ankara: – 2024. – s.381-384.
9. Ələkbərova, N. Məcruh Muğani "Divan"ında əvəzliklərin işlənmə tezliyi // Elmi xəbərlər. – Bakı: Qərbi Kaspi Universiteti, – 2025. №1, – s. 10-16.
10. Alakbarova, N. Notes on the biography of Majruh Mughani // – Budapest: The scientific heritage, – 2025. No 172, – s. 56-58.
11. Alakbarova, N. The Overlooked poet // – III. Uluslararası edebiyat, dil ve eğitim araştırmaları sempozyumu, – Ardahan, – 2026. – s. 445-451.

Dissertasiyanın müdafiəsi 13 noyabr 2026-cı il tarixində saat 14[00]-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 qeydiyyat nömrəli Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəhəri. İstiqlaliyyət küçəsi, 53.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 8 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.09.2026

Kağızın formatı: A5

Həcm: 38 848

Tiraj: 100